DOI: https://doi.org/10.36719/2706-6185/33/156-160

**Aydan Xəndan**
Bakı Dövlət Universiteti
aydanxandan@bsu.edu.az

# ƏBDÜLHƏQ HAMİD TARHANIN POEZİYASINDA ŞƏHƏR MÖVZUSU

**Xülasə**

Əbdülhəq Hamid türk ədəbiyyatının birmənalı şəkildə olduqca maraqlı və güclü sənətkarlarından olmuşdur. Onun ədəbiyyata qazandırdığı yeniliklər, gətirdiyi yeni mövzular, ədəbi prosesdə fəal iştirakı, ölkənin həm mədəni , həm də siyasi-ictimai həyatında oynadığı rolu bir çox Türkiyəli tədqiqatçılar tərəfindən araşdırılmışdır. Şair, dramaturq Hamidin yaratdığı bənzərsiz əsərlərin mövzularına diqqət yetirdikcə onun daxili aləminə səyahət etmək və oxuculara qaranlıq qalan məsələlərə aydınlıq gətirmək ehtiyacı duyduq. Hamidin ədəbi yaradıcılığına bəzən mane olan, bəzənsə yeni mövzulara yol açan həyat anlarına müraciət etmək istədik.

***Açar sözlər:*** *poeziya, vəzn, forma, Hamid, şəhər mövzusu, şərq, qərb*

**Aydan Khandan**
Baku State University
aydanxandan@bsu.edu.az

## The theme of a city in the works of Hamid Abdulhag

**Abstract**

Abdulhak Hamid is one of the famous poet-playwrights of Turkey. The article examines his works dedicated to the cities of Europe, the East, as well as themes of nature, which occupy one of the main themes in his work. The synthesis of East and West is reflected in many of the author's works. We also tried to explore some aspects of his biography that influenced the poet's work.

***Keywords:*** *poetry, rythm, form, Hamid, theme of a city , east, west*

## Giriş

Əbdülhəq Hamid türk ədəbiyyatının birmənalı şəkildə olduqca maraqlı və güclü sənətkarlarından olmuşdur. Onun ədəbiyyata qazandırdığı yeniliklər, gətirdiyi yeni mövzular, ədəbi prosesdə fəal iştirakı, ölkənin həm mədəni, həm də siyasi-ictimai həyatında oynadığı rolu bir çox Türkiyəli tədqiqatçılar tərəfindən araşdırılmışdır. Şair, dramaturq Hamidin yaratdığı bənzərsiz əsərlərin mövzularına diqqət yetirdikcə onun daxili aləminə səyahət etmək və oxuculara qaranlıq qalan məsələlərə aydınlıq gətirmək ehtiyacı duyduq. Hamidin ədəbi yaradıcılığına bəzən mane olan, bəzənsə yeni mövzulara yol açan həyat anlarına müraciət etmək istədik. Məhz bu səbəbdən irəli çıxaraq da Hamid irsinin tədqiqatçısı olan Professor İnci Enginünün əməyi sayəsində toplanılıb çap etdirilən Hamidin məktubları və xatirələrinə nəzər saldıq (Tanpınar, 2022).

Hamid 1852-ci ildə İstanbulun Bəbək səmtində dünyaya göz açmışdır. Onun atası Hayrullah Əfəndi tibbi təhsil almış, sonralar Məktəb-i Tibbiyyədə təhsil alan və həyatının sonunda da Tehranda səfirlikdə çalışan bir ziyalı idi. Uşaqlıq illərindən etibarən Hamidin atası və qardaşı Nəsuhi bəylə səyahətləri onun dünyagörüşünün formalaşmasına təsir göstərmişdir. Atası oğlunun təhsilinə böyük əhəmiyyət vermiş və bu səbəbdən də kiçik Hamidə Hoca Təhsin Əfəndi və Hoca Bahəddin Əfəndi kimi özəl müəllimlər tutmuşdur. Məhz bu müəllimlər Hamidə klassik ədəbiyyat, fəlsəfə, psixologiya kimi elmlər haqqında geniş məlumat verirlər. Qeyd etmək lazımdır ki, Hamid poeziyasında hakim olan dərin fəlsəfi fikirlərin formalaşmasında onun müəllimlərinin güclü təsiri olmuşdur. Həyatının sonrakı mərhələlərində şairin keçirdiyi sarsıntılara qarşı göstərdiyi reaksiya onun həyata qarşı fəlsəfi baxışından da irəli gəlirdi. Hamidin yaradıcılığında diqqəti cəlb edən şərq-

qərb mühiti, iki fərqli mədəniyyətin bəzən sintezi onun uşaqlıq illərindən hər iki mühitdə yaşamasından da qaynaqlanmaqdadır (Tanpınar, 1988).

Xatirələrindən Hamidin Roma, Paris səyahəti və Təbriz, Tehrana səfərlərinin onda yaratdığı fərqli təəssüratların şahidi oluruq. Belə ki, 1863-cü ildə qardaşı ilə Parisə gedən Hamid bu gözəl şəhərin heyranı olur və təsadüfi deyil ki, şair "Divanəliklərim yaxud Bəldə" adlı əsərində məhz Parisdən bəhs edir.

Əsəri oxuduqca əslində şairin Parisin gözəlliklərindən daha çox, o gözəlliklərin qoynunda yaşadığı eşq macəralarından, qarşılaşdığı fransız gözəllərindən bəhs etdiyini görürük. Belə ki, bu əsərdə 17 şeir toplanmışdır. 17 şeirin hər biri Parisin səmtlərinin adıyla adlandırılmışdır. Adlarından oxucuda belə bir təəssürat yaranır ki, hər bir şeir parçası şəhərin səmtlərinin təsviri ilə bağlı olmalıdır. Lakin hər bir şeirdə gənc şairin təbiətə, gözəlliyə, gözəllərə, həyata olan sevgisi yer alır.

Əsərin əvvəlində şair əsəri haqqında yazır: "Bugün ben o eşarı, mazi, içinde nisyandan bir misal, belki de zülmani bir hayal olmuş bir adamın asarı olmak üzere mütalaa ettiğim gibi, diğer okuyacaklar dahi sanırım ki, bu kitapta yeni bir şey bulamazlar" (Enginün,1998: 90). Bu fikirdən belə görülür ki, şair illər öncə yazdığı əsər haqqında yazarkən başına gələn hadisələrdən dəyişildiyini qeyd edir. Düşünürük ki, bu dəyişiklik şairin üzləşdiyi çətinliklər qarşısında dəyişilməsindən qaynaqlanır.

"Divanəliklərim yahut belde" əsərindəki şeirləri oxuduqca belə bir qənaətə gəlmək olar ki, bu əsər şairin nəzmlə yazdığı bir gündəliyidir. Məhz bu gündəliyi sayəsində Hamidin gənc yaşlarında Avropa mədəniyyətinin mərkəzi sayılan Paris şəhərində keçirdiyi günlərinin mahiyyətini görmüş oluruq (Kabaklı, 1997).

Qərb mədəniyyətinin təsiri altında yaranan ədəbiyyatın qurucularından sayılan Hamid bu mədəniyyətin beşiyində olduğu müddətdə daha çox əyləncəyə meyil göstərsə də, ədəbiyyatdakı yenilikləri gördükcə onları türk ədəbiyyatına da gətirməyə çalışır. Vətəninə qayıtdıqdan sonra poeziyasında, dram əsərlərində yeni -yeni təcrübələr aparır.

Hamid irsinin tədqiqatçısı Prof. İnci Enginün "Divaneliklerim yahut belde" haqqındakı fikirləri maraqlıdır: "Şiirlerin çoğu eğlenceyi seven genç bir adamın dolaştığı yerleri, sanatkârları, beraber bulunduğu kadınları anlatır. Bunların dışında kalan bir iki şiir ise Paris dekorunu tamamlar" (Enginün, 1986: 21).

Hamidin həyatına nəzər salsaq görürük ki, şairin həyatına girmiş müxtəlif qadınlara qarşı duyduğu romantik hisslər onun ilham qaynaqlarından idi. "Divaneliklerim yahut belde" əsərində də şair o dövr eşq macəraları yaşadığı qadınlarla görüşlərini nəzmə çəkərkən, o an ətrafda mövcud olan mühiti məhz qadının onda yaratdığı hisslərdən irəli çıxaraq təsvir edir. Şairi əhatə edən mühit onun o an keçirdiyi hisslərilə sıx bağlıdır. Keçirdiyi hissləri Hamid belə təsvir edir:

"Sanki Vil Davri'de etraf u civar
Saçları feyziyle olmuş hep bahar"
Böyle Vil Davri'de kalsak her gece
Bir ağaç altında yatsak gizlice
"Efkârıma, esrarıma, câna,
Ben söylemeden vâkıf olursun …
Her zevkimi senden duyarım ben;
Gönlüm mü hâyalim mi nesin sen?" (Tarhan, 1979: 115)

Hamid həyatında müxtəlif ölkələr, şəhərlər, mədəniyyətlərlə üzləşmiş və bunların təsiri onun yaradıcılığında yeni mövzuların yaranmasına, yeni obrazların gəlməsinə yol açmışdır. Yaşadığı və ya səyahət etdiyi ölkələr Hamiddə fərqli duyğular oyatmışdı. Bunu da qeyd etmək lazımdır ki, Hamid həyatı boyunca zaman-zaman maddi sıxıntılarla üzləşmiş və çəkinmədən məktublarında, xatirələrində və əsərlərində də bu məsələni işıqlandırmışdır (Əbdülhak Həmidin üç əsəri, 1948).

Hamidin şəhər təəssüratları onun "Divanəliklərim yahut belde" əsərilə başlamış və "Mevki Viyana" kimi şeirində tamamilə başqa bir mövzu ilə səsləşərək qələmə alınmışdı. Əgər

"Divanəliklərim" də şair gənc və eşq dolu biri idisə, "Mevki Viyana" şeirində həyatının çətin dövrünü yaşayan, səfalətlə üzləşən bir Hamidin təsvirini görürük. Hamid ömrü boyunca ədəbi mühit tərəfindən Şair-i Azam adı ilə tanınan bir ədib idi. Müxtəlif diplomatik missiyalarda fəaliyyət göstərən, sayılıb-seçilən, hörmətlə qarşılanan şair Viyanada işlədiyi dövrdə maddi çətinliklərlə üzləşmiş və bu vəziyyət onun ruh sarsıntıları keçirməsi ilə nəticələnmişdi. Şair öz vəziyyətini təsvir edərkən, hardasa düşdüyü vəziyyətin həm də gülünc olduğunu oxucuya çatdırmaq üçün, ciblərinin deşik olduğundan, lakin bunda bir narahatçılığa səbəbin olmamasından da yazır, çünki ciblərdən düşə biləcək pul da şairdə yoxdur (Əbdülhak Həmidin xatirələri, 1994):

Vaktiyle siyah, şimdi fakat yemyeşil olmuş
Bir paltosu vardır.
Tek gözlüğü vardır, geceler kandilidir o.
Ya rab ne hayat!
Cepler delik az çok
Lakin ne zarar var ki delikten düşecek yok.
Bir korkusu vardır
Meyhanelerin saat-i tatili pek erken… (Tarhan 1979: 45)

Bu şeirdən bəhs edərkən şairin Vyana şəhərində yaşadığı müddət ərzindəki vəziyyətinə nəzər salmağı lazım bilirik.

1912-ci ildə Hamidin qardaşı Nəsuhi bəyin ölümündən sonra şair Brüsseldəki səfirlikdəki vəzifəsindən kənarlaşdırılır. Hamid İstanbula qayıtmaq üçün Vyanadan keçən yolu seçir. Bu vaxt Balkan müharibəsinin davam etdiyi bir dövr idi. 1914-cü ildə məclisin üzvü seçilən Hamid həyat yoldaşı Lüsyen xanımla əvvəlcə Budapeştə, sonra isə Vyanaya yola düşür. Xatirələrində şair yazır: "Ayandaki rızkım münkatı olduğu tarihte Mustafa Kemal Paşa hazretlerine hitaben yazdığım bir arızada evvelce kendileriyle müşerref olduğum zaman milletin ümid-i istikbali oldukları hakkındaki itimadımızın ne kadar kavi olduğunu ve bu hatıratımda yadettiğim vechile kendilerine de tekraren beyan etmiş fakat bu devlet ve millete elli seneden ziyade hizmet ettikten sonra benim Biyana da füls-i ahmere muhtaç bir halde kalacağımı ve bu derece perişan bir istikbalim olacağını elbette ilk mülakatımızda memul etmemiş olduklarından bahiste Millet Meclisi nezdinde şefaat buyurmalarını rica eylemiş olduğum gibi Mevki Viyana manzumesiyle de vatandaşlarıma beyan-hal etmek istemiştim" (Enginün, 1986: 360).

Məlumdur ki, Hamidin bu şeiri "Tanin"qəzetində çap olunduqdan sonra güclü əks-səda yaradır. Şeirin işıq üzü görməsilə şairin maddi vəziyyətinin yaxşılaşdırılması uğrunda işlər də aparılır. Ankara hökuməti şairə bir Maçkada bir mənzil də hədiyyə edir. Bu haqda şair xatirələrində yazır: "Sonra Abdülmecid Efendi Hazretleri saray-ı hılafet penahileri müçtemilatından bir dairede üç oda tahsis buyurdular. Avrupa ya azimetlerinden sonra fakir de o daireden Maçka Palas ta bir apartımana naklettim" (Bezirci, Hamid, 1983).

Hamidin şəhər mövzusuna həsr etdiyi əsərləri arasında "Sahra" şeirlər toplusu da xüsusi yer tutur. Əgər klassik poeziyada təbiət təsvirləri sadəcə insanı əhatə edən bir peyzaj, ilham mənbəyi kimi yer alırdısa, tənzimat ədəbiyyatında təbiət sadəcə təbiət ünsürlərinin təsvirlərindən ibarət deyildi.

Məhz bu dövr poeziyada insanın təbiətin bir parçası olaraq şeirlərdə yer alması və təbiətlə bir bütünlük təşkil etməsi məsələsinə toxunulur. Pastoral mənzumələrdə tənzimatçı şairlər təbiətin insanda yaratdığı təəssüratlardan, insanın keçirdiyi hisslərin təbiət təsvirləri ilə ifadə olunmasına diqqət yetirilməyə başlanıldı. Hamid də Sahra əsərində insan və təbiət, insan və şəhər mühiti mövzularına özünə xas olan fəlsəfi baxış bucağından yanaşmış oldu. Əsərdə şair təbiət qoynunda yaşayan, səhrada məskən salmış bədəvilərlə şəhərli bələdilərin həyat tərzlərini müqayisə edir. Bu müqayisə onların yaşayış şəkillərinin fərqliliyinin daxili aləmlərindəki fərqliliklər yaratması şəklində aparılır (Tanpınar, 2022):

Belde halkında görmedim, hayfa,
Gördüğüm ünsü ehl-i vahşette!
Bedeviler sükun u rahatte,
Sürdüğü daima ganemle safa.
Beledi muttasıl esir-i cefa,
İntiaş aleminde zulmette! (Tarhan, 1979: 45)
Biri endişeden aman bulmaz,
Biri endişeye zaman bulmaz (Tarhan,1979: 43)

Misralardan göründüyü kimi Hamid bədəvilərin sakitlik içində rahat həyat serdüklərini qeyd edərkən, bələdilərin, yəni şəhərlilərin daim cəfa içində əsirlikdə olduğundan danışır və zülmətdə olduğunu bildirir. Nəticə etibarilə də biri qaçaqaçdan aman tapa bilmədiyi kimi, digərləri də qaçaqaça, narahatçılığa zaman belə tapa bilmir. Əsərin digər hissələrində Hamid şəhərlinin həyat tərzi ilə, yedikləri ilə, düşüncələri ilə səhrada yaşayanlarla müqayisədə daha pis vəziyyətdə olduğunu bildirir:

Bedevinin ibadeti haktır,
O da bil-farz olunsa bir tahkik,
Hey et-i kainata bakmaktır,
Zen-i hem-razını edip terfik.
Olduğuyçün tabiate makrun
Bu ibadet gelir ukule sahih
Olunur hem de hepsine tercih. (Tarhan, 1979: 44)

Hamid fərqli mühitdə yaşayan insanların inanc və dua etmələri məsələlərinə də toxunaraq, səhrada yaşayanların ibadətlərinin təbiət qoynundan edildiyi üçün Tanrıya daha yaxın, daha içdən olduğuna inanır.

"Sahra" şeirlər toplusunda fransız şairlərinin pastoral mənzumələrindəki təsvirlərinə rast gəlirik. Qeyd etməliyik ki, belə tərz təsvirlərə Hamidin qələm dostu Rəcaizadə Mahmud Əkrəmin də şeirlərində rast gəlirik. Hamid "Sahra" əsəri haqqında danışarkən qeyd edir ki, bu əsəri məşhur şair Bayrona nəzirə kimi yazmışdır: " Bu manzume bedia-nüvislikte ferid olan Byron şair-i meşhurunun meslek-i nazımda ihtiyar eylediği tarz-i mergube nazire olarak yazıldı" (Tarhan, 1979: 17).

Qərb ədəbiyyatında XIX əsrdə populyar olan və fransız ədibi Russonun irəli sürdüyü təbiətdən uzaqlaşaraq insanların bədbəxt olduqları fikri Hamidin bu əsərində öz əksini tapdığının da şahidi oluruq. Təbiətə sığınaraq mənəvi rahatlıq tapmaq, sadəcə incəsənətlə məşğul olaraq, qayğılardan uzaqlaşmaq arzusu sərvəti fünun ədəbiyyatl dövründə də məşhurluq qazanır. Belə ki, şair və yazıçılar şəhər mühitindən uzaqlaşaraq, təbiət qoynuna sığınıb bir icma qurmağı da arzulayırdılar.

Türk poeziyasında şəhər, təbiət mövzusu müxtəlif dövrlərdə fərqli yanaşmalarla qələmə alınırdı. Dövrün siyasi-ictimai ab-havası da, sözsüz ki, bu mövzuda yaranan əsərlərə öz təsirini göstərirdi. XIX əsrdə yaranan poetik nümunələrdə şəhərdən qaçaraq təbiətə yerləşmək mövzusu aktual idisə, sonrakı dövrlərdə şəhərdə yaşayan insanın yalnızlıq mövzusu poetik nümunələrdə daha tez-tez qarşımıza çıxacaqdır (Türk ədəbiyyatı tarixi, 2010).

## Nəticə

Hamidin əsərlərində yer alan şəhər mövzusundan bəhs edərkən qeyd etmək lazımdır ki, Hamid müxtəlif ölkələrdə olmuş və müxtəlif mədəniyyətlərlə üzləşmişdir. Bu tanışlıqlar şairin əsərlərində ayrı-ayrı şəhərlərin təsvirlərinə yol açmışdır. Qeyd etməliyik ki, Hamid təkcə şəhərlərin təsvirlərinə yer verməmiş, bu şəhərlər onun ilham mənbəyinə çevrilərək tarixi, fəlsəfi mövzuda əsərlər yazmağa sövq etmişdir.

Hamid poeziyasında yer alan müxtəlif şəhər adları şairin həyatında, taleyində rol oynamış şəhərlərdir. Tehranda keçirdiyi uşaqlıq illəri, Parisdəki gənclik dövrü, Romada ilk operanı seyr

etməsi, Beyrutda həyat yoldaşının dəfn edilməsi, Bombeydəki diplomatik missiyası, Viyanadı müflis günləri, Londondakı həyatı onun bu və ya digər şəkildə əsərlərində öz əksini tapmışdır. Qərb və şərqin sintezi də Hamid yaradıcılığında, sözsüz ki, gördüyü şəhərlərin, tanış olduğu mədəniyyətlərin təsirilə formalaşan dünyagörüşündən qaynaqlanır.

Hamid Türk ədəbiyyatında Tənzimatla başlayan qərbliləşmə, yenilikçi hərəkatını inkişaf etdirmiş olan sənətkarlardandır. O, tənzimatçı bir sənətkar hesab edilsə də, onun yenilikçi yaradıcılığı Sərvəti-fünun poeziyasının astanasında dayanaraq, ədəbiyyati-cədidənin yaranmasına da təkan vermişdir. Hamid həm mövzuda, həm də formada yeniliklərə açıq bir şai olmuşdur. Bir sıra tədqiqatçılar onun yeniliklərini qəbul etməsələr də, bu danılmaz faktdır ki, məhz Hamidin poeziyası Tənzimat dövrünün yeniliklərlə dolu bir poeziyasıdır. Onun əsərlərində biz yeni-yeni mövzulara rast gəlir, əruz vəzninin yeni qəliblərini də irəli sürmüşdür. Bu məsələ ilə bağlı şair köhnə tərz şeirinin formalarını dəyişdiyini və gerçək şeirin nə olduğunu bildirdiyini yazırdı:

Evet, tarzı-kadim-i şir-i bozduk, hercümerc ettik,
Nedir şir-i hakiki safha-i irfana dercettik.
Bu yolda nakd-i vakti cem-kuvvet birle harcettik,
Bize gelmişti zira meslek-i ecdad na-kafi (Bezirci, 1983: 52).

## Ədəbiyyat


1. Tanpınar, A.H. (2022). Ədəbiyyata aid məqalələr. İstanbul.
2. Tanpınar, A.H. (1988). 19-cu əsr türk ədəbiyyatı tarixi. Beyoğlu-İstanbul: Çağlayan Kitabevi.
3. Enginin, İ. (1998). Abdülhak Hamid Teatros 2. İstanbul: Milli Təhsil.
4. Kabaklı, A. (1997). Türk ədəbiyyatı tarixi. İstanbul.
5. Enginin, İ. (1986). Abdülhak Hamid Tarhan. Ankara.
6. Tarhan, A.H. (1979). Onun bütün şeirləri. İstanbul.
7. Əbdülhak Həmidin üç əsəri. (1948). İstanbul, Kanaat kitab mağazası.
8. Əbdülhak Həmidin xatirələri. (1994). İnci Enginin. İstanbul.
9. Tanpınar, A.H. (2022). Ədəbiyyat üzrə məqalələr. İstanbul: Dərgah.
10. Bezirci, A., Hamid, A. (1983). Tədqiqat-tənqid. Cağaloğlu-İstanbul.
11. Türk ədəbiyyatı tarixi. (2010). Bakı: MBM-Bəngü, II cild.
12. Bəzirci, A. (1983). Abdülhak Hamit. Həyatından seçmələr, şeirləri və pyesləri. İstanbul.


Göndərilib: 12.01.2024 Qəbul edilib: 13.03.2024